# Atamla bağlı xatirələr



**Sergey Lvoviç Tolstoy**

### İKİNCİ HİSSƏ

I-III Fəsillər. Kitinin Vronskilə sevgi romanından sonra tutulduğu xəstəlik Tolstoyun baldızı Tatyana Andreyevna Kuzminskayanın Lev Nikolayeviçin qardaşı Sergey Nikolayeviçlə sevgi romanından sonra tutulduğu xəstəliyi xatırladır. Bu haqda o, xatirələrində yazır.

V Fəsil.

İki zabitin titulyar müşavirin arvadını təqib etməsi, Vronskinin onları qadının əriylə barışdırması hadisəsi də gerçək həyatdan götürülüb. 15 mart 1874-cü il. Tolstoy baldızı T.A.Kuzminskayaya yazırdı: "Qardaşın Saşadan soruş ki, mamzeli yerinə ərdə olan qadının dalınca düşən, sonradan üzr istəyən zabitlər haqqında danışdığı hadisəni romanıma daxil edə bilərəmmi? Hadisə özü özlüyündə çox əladır. Elə mənə də romanım üçün çox vacibdir".

VII Fəsil. Karenin ümumi hərbi mükəlləfiyyət haqqında söhbəti 1 yanvar 1874-cü ilə aiddir. İyirmi beş illik əsgəri xidmət altı ilə qədər azaldılmış və hərbi mükəlləfiyyət bütün silklərə aid edilmişdir.

Qrafiniya Lidiya İvanovnanın Hindistandan ser Con adlı missioneri vardı. 70-ci illərin əvvəllərində Tolstoy Hindistandan gəlmiş Mr.Long adlı bir missionerlə tanış olmuşdu. O, Yasnaya Polyanaya da gəlmişdi. Onun şələ kimi qalın, bəyazlaşmış saqqalını, zəif fransızcasını və anamla söhbət etmək üçün bəhanə axtarırmış kim soruşmasını xatırlayıram: "Avez-vous ?t? ? Paris?" (Siz Parisdə olmusuz?). Atam üçün o çox da maraqlı gəlmirdi.

XII-XVII Fəsillər. Bu fəsillər Tolstoyun Yasnaya Polyanadakı subaylıq həyatını xatırladır. Kolpik - onun atlarından birini adıdır (sakit səmənd at); Laska - setter Dora; Çefirovka, Suri - Krapivensk qəzasıdır. Oblonskinin Ryabinina kəsmək üçün meşə satması 60-cı illərdə Tolstoyun Nikolsk-Vyazemsk malikanəsindən bir hissəni tacir Çeremuşkina kəsmək üçün satmağını xatırladır. Görünür ki, Oblonskidən meşəni alanı Ryabinin adlandıranda Çeremuşkini xatırlayıbmış ("çeremuxa" - gavalı və "rəbina" - quşarmudu).

XVIII Fəsil. "Vronskinin anası onun Kareninayla münasibətlərindən xəbər tutanda əvvəlcə bundan heç də narazı deyildi... Onun fikrincə, gənc yaraşıqlı bir kişi üçün kübar təbəqəylə əlaqədə olmaqdan yaxşı heç nə ola bilməzdi". Tolstoy "Etiraf"ında yazır: "Mənlə birgə yaşayan əziz, təmiz, müqəddəs xalam həmişə mənə deyirdi ki, ən böyük arzusu mənim ərli bir qadınla münasibətdə olmağımdır.

XXIV və XXV Fəsillər. Tolstoy heç vaxt zabit cıdırında olmayıb. Onları zabit cıdırlarında olan adamlardan soruşaraq yazıb. At və at çapmağın özəlliklərini bilməsi ona bu işdə böyük kömək olub. Daha çox xırdalıqları Tolstoya tanışı, atçılıq sahibi olan knyaz D.D.Obolenski danışmışdı. Cıdırda baş vermiş xüsusi hadisəni - knyaz Dmitri Borisoviç Qolitsinin at çaparkən ehtiyatsızlıq ucbatından atının belini qırmasını da o danışmışdı. Bu hadisə Vronskinin başına gələn hadisəyə çox bənzəyir. Atın adı - Fru-fru bir fransız komediyasının adından götürülüb. Cıdırda qalib olan Maxotin, D.D.Obolenskinin fikrincə, hərbi nazir A.D.Milyutinin oğlunu xatırladır.

XXVI Fəsil. Burada xatırlanan Çin üzrə məşhur səyyah çox güman ki, İ.Y.Pyasetskidir. Onun "Çinə səyahət" adlı kitabı 1874-cü ildə çap olunub.

XXXII və XXXIII Fəsillər. Madam Ştal və onun tərbiyə etdiyi Varenka, Sofya Andreyevnanın dediyinə görə, Knyaginiya Yelena Aleksandrovna Qoltsina və onun tərbiyə etdiyi Katenkanı xatırladır. Varenkanın dünyaya gəlişini Tolstoy öz nəslindəki hadisələrdən götürüb.

Romanda madam Ştal haqqında oxuyuruq: "Ərindən boşanandan sonra dünyaya gətirdiyi ilk körpəsi doğulan kimi dünyasını dəyişmişdi. Ştal xanımın doğmaları onun yüksək həssaslığını bilərək, bu xəbəri eşitcək onun da ölməsindən qorxdular. Və buna görə də həmin gecə Peterburqda elə həmin evdə doğulmuş saray aşpazının qızıyla onun ölən qızını dəyişdirdilər. O uşaq Varenka idi". Tolstoy xatirələrində yazırdı ki, onu xalası Aleksandra İliniçna Osten-Saken "artıq ərindən boşanandan sonra doğmuşdu. Onun uşağı ölmüşdü. Və onu saray aşpazının uşağıyla dəyişdirmişdilər". Bu, Aleksandra İliniçnanın qızı Paşenka idi. O, Lev Nikolayeviç, onun bacı-qardaşlarıyla bir yerdə yaşayır və tərbiyə alırdı.

### ÜÇÜNCÜ HİSSƏ

XII FƏSİL. Levinin saman üstündəki düşüncələri Tolstoyun evlənməzdən əvvəl öz düşüncələri idi: "...köhnə öyrəşdiyin həyatından, lazımsız biliklərdən, heç nəyə gərəksiz olan təhsilindən uzaqlaşmaq... İşləmək və işləməyə ehtiyacı olmaq? Pokrovskini buraxmaq? Torpaq almaq? Cəmiyyətə (kəndli) qarışmaq? Kəndliylə evlənmək?" Lev Nikolayeviç bütün ömrünü "köhnə həyatından uzaqlaşmaq" arzusunda olub. Evlənməzdən bir müddət öncə kəndli bir qızla ailə qurmaq da ağlına gəlmişdi. Yadımdadır, bir dəfə qardaşım İlyayla mənə bir mülkədarın ikinci dəfə kəndli qızla evlənməyindən danışdı. O, atama deyib: "Mən indi hiss edirəm ki, evdəyəm". Atamın, çox güman ki, həmin mülkədara yazığı gəlirdi.

XIII FƏSİL. İnqilabaqədərki dövrdə boşanmanın çox çətin şərtləri vardı. Ozamankı qanunlara əsasən boşanma üç halda - evlilərin fiziki məhdudiyyəti, ər-arvaddan birinin beş il müddətinə xəbərətərsiz yoxluğu və xəyanət olduğu halda baş tuta bilərdi: Birinci iki şərt olmayanda üçüncü şərtə əl atmağa ehtiyac olurdu. Amma boşanmanın qanuni sayılmasından ötrü xəyanət real və formal şəkildə sübutlu olmalı idi. O zaman günahsız tərəf ikinci nikaha və uşaqları üçün haqq qazanmış, günahkar tərəf isə bütün bunlardan məhrum olurdu. Kareninlərin boşanması, anoloji olaraq ya Annanın ərinə xəyanəti (bu halda o, oğlundan və ikinci dəfə nikaha girməkdən (Vronski ilə) məhrum olacaqdı), ya da Aleksey Aleksandroviçin olmayan günahını boynuna götürməsiylə reallaşa bilərdi. Lakin bu, rüşvətxorluqları ilə məşhur konsistoriya məmurları tərəfindən təsdiqlənməli idi. Günahsız Aleksey Aleksandroviç olmayan xəyanəti pulla tutulmuş hansısa qadınla oynamalı, pulla alınmış şahidlər isə buna təkzibolunmaz sübutlar gətirməli idilər. Belə olduğu halda Anna yox, o özü oğlundan və ikinci dəfə nikaha girmək haqqından məhrum olacaqdı. Bu cür prosedur qanuna zidd olsa da dəfələrlə təcrübədən keçirilmişdi.

XVIII FƏSİL. "Safonun gətirdiyi gözlənilməz gənc müsafir elə vacib bir şəxs idi ki, gənc olmasına baxmayaraq hər iki xanım onu ayağa qalxaraq qarşıladı". Bu müsafir, çox güman ki, möhtərəm knyazlardan biri olub. Kübar təbəqədə möhtərəm knyaz içəri daxil olan zaman hamının, hətta yaşlı qadınların da ayağa qalxması kimi bir adət vardı.

XX və XXI FƏSİL. Serpuxovskinin prototipi Tolstoyun Sevastopoldakı tanışlarından, məsələn, sonradan general-adütant olan, yaxşı vəzifələrdə işləmiş A.D.Stolıpin və ya 60-cı illərə qədər general, 70-ci illərdə Orenburq general-qubernatoru olan N.A.Krıjanovski ola bilərdi. Tolstoy onunla müharibədən sonra 1862 və 1876-cı illərdə görüşmüşdü.

XXIV və XXVII FƏSİLLƏR. Levinin təsərrüfatdakı uğursuzluqları həmin dövrün sahibkarlarının hamısına aid idi. Təhkimçilik haqlarının ləğvindən sonra mülklərdə təsərrüfat işləri hələ xeyli müddət sahmana düşə bilmirdi. Mülkədarlar bir az çörəyin qiymətinin ucuzluğundan, bir az fəhlələrin yeni iş formasına vərdiş etməməklərindən, kəndlilər isə vergi, hüquqsuzluq və ənənəvi şumlanmış torpaqda üçtarlalı əkindən əziyyət çəkirdilər.

Levinin evində qaldığı varlı mujik, əslində, çox da böyük mülkədar deyildi: o, 120 desyatin almış, mülkədardan isə 300-ünü icarəyə götürmüşdü. Tolstoy Samaradakı mülkünə gedəndə varlı kəndlilərdən birinin evində qalmışdı. Görünür, Tolstoy elə onu xatırlayıbmış. Həmin vaxtlarda Samara quberniyasında yaxşı məhsul verən torpağı çox ucuz qiymətə icarəyə götürmək və ya almaq olurdu. Mərkəzi Rusiyada bu daha çətin başa gəlirdi, - torpaq daha baha qiymətə idi; burada varlanan kəndlilərin gəlirləri torpaqdan yox, daha çox xırda ticarət və sələmçilikdən gəlirdi.

XXVI və XXVII FƏSİLLƏR. Sviyajskinin təsvir edən Tolstoy, çox güman ki, yaxından tanıdığı və 70-ci illərdə tez-tez görüşdüyü Pyotr Fedoroviç Samarinin xüsusiyyətlərini nəzərdə tutubmuş. Hesab edirəm ki, Samarinin həyata baxış bucağı, eynən Sviyajskinin baxışları kimi sirli idi. Samarin varlı mülkədar idi. Əvvəlcə Yepifanski qəzasının başçısı, sonralar 1873-cü ildən 1880-ci ilədək Tula quberniya başçısı olub. O da Sviyajski kimi ağıllı, yaxşı təhsil almış və liberal idi. Amma bəlkə də, Sviyajskiyə nisbətən az liberal olub. O, qardaşları Yuri və Dmitri kimi slavyanpərəst deyildi. Sviyajski kimi o da həyat yoldaşıyla mehriban dolanıb, övladları olmayıb.

"Ağ bığlı mülkədar... çox güman, islaholunmaz kəndli, kəndin köhnə sakini, kənd təsərrüfatı sahibi" fikrini həmin dövrlərdə çox adamlardan, xüsusilə də öz mülklərindən gələn gəlirlərlə oradaca yaşayan mülkədarlardan eşitmək olardı. Bunu da deyim ki, bu cür fikirləri Lev Nikolayeviçin qardaşı Sergey Nikolayeviç və şair A.A.Fet də deyirdi.

XXVIII FƏSİL. Sviyajski Levinə "meşədə çox maraqlı uçurumu" göstərmək istəmişdi. Yeraltı sular və torpaq sürüşməsi nəticəsində yaranan bu cür uçurumlar Yasnaya Polyana yaxınlığındakı Zaseka meşəsində vardı.

XXIX FƏSİL. Levinin kəndlilərlə bağlı planları Tolstoyun 50-ci illərin sonlarında Yasnaya Polyana kəndliləriylə həyata keçirmək istədiyi layihəni xatırladır. O, təhkimçiliyi töycülüklə əvəz etmişdi. Rezunov və Şurayev - Yasnaya Polyana kəndlilərinin soyadlarıdır.

XXXI FƏSİL. "Hər şeyin qaçılmaz sonu ölüm ilk dəfə Levinə dəfedilməz qüvvəsi ilə özünü göstərdi". Tolstoy ilk dəfə ölümün qaçılmaz olduğunu 1860-cı ildə qardaşı Nikolayı itirəndə hiss etmişdi. 1869-cu ilin sentyabrında Arzamas mehmanxanasında gecələyərkən həmin hissi xüsusilə - səbəbsiz, izahsız həsrəti, qorxunu, dəhşəti, arvadına yazdığından daha iti hiss etmişdi.

Fyodor Boqdanoviç olmayan vaxt Levinin qardaşı ilə yastıqlarla oynaması xatirəsi də Lev Nikolayeviçin öz uşaqlıq xatirələridir. Fyodor Boqdanoviç - Tolstoyların dayısı alman Fyodor İvanoviç Ressel idi. O həm də "Uşaqlıq və yeniyetməlik"də Karl İvanoviç obrazı kimi daxil edilib.



*Ardı var*

**Rus dilindən tərcümə edən: Xanım Aydın**